ədalət.2017.4 aprel.s.4.

# Geştəkin Qəmər nənəsi

(sənədli hekayə)

Təbiətin gül-çiçək fəslinin-baharın gəlişi Dəli dağın sis-dumanına, qarına, şaxtasına zərrəcə təsir eləmir; iliyə işləyən qışın soyuğu, sırsırası bir yana, duman qatrılaşır, nəinki gecələr, gündüzlər belə bir - iki saatlıq olsa da günəş boy göstərir, yaz gəlir, lap qapının ağzındadı, müjdəsini verə bilmir.. . Zirvəsi hələ qalın örtüklü , şair Qurbanın, Dədə Şəmşirin ilham pərisini qanadlandıran Dəli dağın beli bükülmüşdir, nədi, sifətindən zəhrimar tökülür. Yüz illər boyu ona sığınan, hər qarışında gül ətri, çiçək ətri gələn Geştəki əldən verir.. . Neynəsin, dili yox haray çəkə, kimsəyə dərdini izhar eləyə. Gücü özünə çatır, bütün günü qar-yağış ələyir başına. Günbəgün yox, saatbasaat kənlə, onun vüqarlı, əzəmətli, düz ilqarlı, halal çörəkli, hiylə, məkir bilməyən camaatı ilə ayrılıqları, tənhalığı daha dərindən his edir. Bilsəyədi onun sevimli kəndini qarasaqqallılar yağmasalyacaq, ən azında şiş, quşqonmaz qayalarını uçurardı o faşistlərin təpəsinə...

Kəndin sağ və sol tərəfindəki yamaclarda çağlayan, yayı bumbuz, qışı imisti bulaqları da susmuş, çəkilmişdilər yerin dərinliyinə. Elə bil xəcalətli, suçlu idilər: " Biz Geştəkli oğlan və qızların görüş yeri olmayacağıqsa yaşamağa dəyməz.".

Dağı da, bulaqları da əndişələndirən o idi ki, gözəlliklər məskəni, axarbuxarlı, qonaq-qaralı Geştək düşmənə əsir düşər, tay burda igidlər at yarışına çıxmayacaq, durna gözlü ceyran-cüyür bulaq üstə gəlməyəcək, toy şənliklərində cavanlı-qocalı hamı qol götürüb Yallı getməyəcəklər.

Beləcə, təbiət qan ağlayır, göz yaşı tökür. Gecə-gündüz qar, yağış, yollar keçidilər örtülü, kaşarlarda malheyvan, qoyun-quzu , dəvə sürüləri sahibsiz... Vahimə, qorxu hissi, hər gün yalan-doğru xəbərlər kəndi dolaşır: faşist xislətli qarasaqqallılar bu gün gələcək .. . Əlində rusun silahını atıb-tutan dığalar, şayələrə görə heç nəyə rəhm eləmir, baş kəsir, gəlinlərin qarnındakı uşağı belə süngüyə keçirir.

Hər səhər açılar-açılmaz başqa bir xəbər: bəs filankəs gecənin qaranlığına ... " bürüyüb" arvad-uşağını, malqarasını götürüb gedib uzaqalara.

Sözün həqiqi mənasında, ağbirçək, sayılı-seçili qadınların, neçə deyələr baş biləni, ağıllı məsləhət vərəni Qəmər adlı nənəsi var idi. Geştəkin. Demə görmədim, Aşıq Ələsgərin qarşısında dayanan Tellisi, Güllüsü... Varından yox olmuşdu nənə. Oturubdurdusu hardaydı, yuxusu da gəlmirdi axşamlar... Təndir başında, yol qırağında qız-gəlin cəm olub ondan soruşurdu:

-Ay nənə, sən nə fikir edirsən, nə olacaq bizim axırımız?. Gələcəkmi bura erməni?

Nə desin, nə danışsın... Yalan söz bilməyib ömrü boyu, ümidli, işıqlı da heç nə yox... 64 il bir yasdığa baş qoyduğu, 15 il kənd sovetinin sədri işləmiş, ötən payızda haqq dünyasına qovuşmuş İmranının haçansa söylədiyi qədim bir əfsanə boy verir xəyal dünyasından:

Yazdığı çayın qırağında əqrəb göz yaşı tökür... tısbağa soruşur ondan:

- Noolub?. Niyə belə pəjmürdəsən?.

- İlan, qurbağa, su quşları üzüb keçdi o taya. Tək qalmışam... Üzə bilmirəm axı... Qorxuram boğulam...

Rəhm edir tısbağa, götürür onu belinə, keçirir çayı... Sahilə çıxan kimi, " bu xeyirxahlığa, məni ölümdən qurtardığına görə istəyirəm dilindən öpəm sənin" deyir əqrəb. Elə dilini çıxaran kimi çanağından, onu neştərləyir, zəhərini tökür.

Can üstündə olan tısbağa " ay naşükür, niyə məni zəhərlədin, budu sənə yaxşılığımın əvəzi?.

-Günahım yoxdu, dost, mənim zatın belədi.

İndi ermənininin zatı qırıqdı. Elə ki, köməyinə ehtiyacı oldu keçəqulundu qabağında...

Fürsət düşdümü əlinə, zatını göstərir. Dilimizi, xislətinizi, adət-ənənələrimizi pis bilmir erməni. Bilir ki, ən azından, pula, mala hərisik, vəzifədə olan birimizin qucağına arvadın ver, çəkil dur kənarda, dönəcək yolundan, əqidəsindən o.

***

Dağa desə, dağ dözməz bu dərdinə Qəmər nənənin. İki oğlunu, bu yaxınlarda isə kürəkənini itirmişşdi davada. Amma neyləsin, fikirləşirdi: kimdən artıqdı o?. Elnən gələn bəla hamınındır. Qəmini, ürək sızladan kədərini gizlədəsən gərək, daha doğrusu, tək çəkəsən öz yükünü. Solub saralmışdı, çöhrəsində hamıya bəs edəcək xoş, isti təbəssüm cilvələnmirdi. İçində ağrı, əzab yaşanan qadınlara, qızlara-hansı ki, Allah-Təala onların vasitəsilə kürreyi-ərzi xəlq edib-nədesin, hər şeyə son qoyacaq qəzavüqədərin ağırlığını necə anlatsın?.. . Əllərini göyə qaldırdı: " Niyə xəlq etmişdin onları, ey Ulu Tanrı?.Nədi onların suçu?. Qocalar bir yana, ipəkipək nənələr şirin, şəkər nəvələrə nağıl danışa biliblər, bəs bu cavanlar, yazıqlar nə yatdılar ki, nə də yuxu görsünlər.. . Göydən niyə daş, qaya uçurub tökmürsən erməni vandallarının təpəsinə?. Yer sənin, göy sənin, bütün kainat ovcunda, niyə ermənininin kökünü kəsmirsən, hay?. Hanı sənin möcüzən?.Göstər qəzəbini, nə vaxta saxlayırsan onu?.

İki ay öncə qız nəvəsi, zabit paltarlı İkram gəlmişdi doğma ocağa. "Qaragöz" deyərdi ona. Dilli-dilavərdi, hafizəsinə söz yoxdu nəvənin. Heç unutmur: nənənin söylədiyi nağılları sabahısı bəzəkli-düzəkli şəkildə qaytardı ona; Aşıq Ələsgərin, Aşıq Alının, Şair Qurbanının, Dədə Şəmşirin... Onlarca qoşmasını, gəraylısını, dodaqdəymәzini əzbər söyləyirdi. İndi nəvənin üstünə dağ uçub elə bil, zarafat eləmir sevimli nənəylə. Tutqundu, başını qoymağa yer axtarır, şir-sifətindən əzab, narahatlıq oxunur.

Ona çox sorğu-suala tutdu Qəmər:

-Ay bala, nə müsübətdi başımıza gəlir?. Bəyəm kardı, kordu dünya, görmür, eşitmir bu haqsızlıqları?.yuxarıda oturanlar, başbilənlər nə düşünüb fikirləşirlər?. Kəlbəcər haçannan Qarabağ olub?.

İkramın cavabları ürəkaçan, ümüdli deyildi heç:

-Ay nənə, nə qoyub, nə axtarırsan... Bizi yağmalayan rusdu, rus. Azərbaycanı işğal eləyib, erməniyə verən Moskvadı. Bu rayonların işğal planı orda cızılır. Rus qoşunu,silahsursatı yeridib gündə bir rayonu , kəndi xaraba qoyur, sonra erməniyə deyir: qır, öldür düşmənini... Ötən il görmədin Xocalıda nələr baş verdi?. Rusun motoatıcı polku dağıtdı oranı, sonra əlində rusun tankı, topu, avtomatı olan vəhşilər görünməmiş müsibətlər törətdi!.

Bizim başbilənlər nə fikirləşir?. Allah ağıl versin onlara... Torpaq, Vətən əldən gedir-getsin, heç qulaqlarına girmir. Yığışıblar Bakıya, hərə bir partiya, təşkilat, qoşun dəstəsi yaradır. Əbülfəz Əliyev, Etibar Məmmədov, Surət Hüseynov, Rəhim Qazıyev, İsgəndər Həmidov, Əli Ansuxski, Əlikram Hümbətov... hamısı vəzifə davasınadır. Belə parçalanmalar, qalmaqallar da, ya rus, ya erməni, sərf eləyir onlara...

Səhin məlumat idi: sabah, ya birisi gün qoşunu, qoruyanı olmayan kəndə gələcək qarasaqqallılar. Kim qalıb burada: əlsiz-ayaqsızlar, qocalıcavanlı qadınlar, uşaqlar...

Düşündü, düşündü Qəmər nənə və cavanlıqda olduğu kimi iri addımlarla gəlib dayandı kəndin ortasında. Əlini gözünə günlük eyləyib, baxdı uzaqlara. Sanki 84 il bundan irəli dünyaya gəldiyi, ruhuna, əbədi hobmuş, hər gülünə, hər çiçəyiyinə bələd olduğu bu yerlərə "salamat qalın" demək istəyirdi. Səsləndi uzaq-yaxın evlərə

-Güllü, Səringül, Yasəmən, Fatma... bura gəlin. Sözüm var hamınıza...

"Tez" sözündən də tez gəldilər. Hamının baxışında, duruşunda intizar, nigarançılıq: göəsən nə olub?.

Gecikdirmədilər niyyətini:

-İndi hansı ildi?

Yerbəyerdən qışqırdılar:

-1993-cü il.

-Ayın neçəsidi?

-Martın 31-i.

- Qayıdın evinizə. Geyinin təzə paltarlarınızı... Ətirlənin, saç-birçəyinizə saığal çəkin. Bütün qadınlar, qızgəlin, lap təzəcə ayaq tutub yeriyən qış uşaqlarınızı da götürüb gəlin bura!.Görüşə gedəcəyik, mən hara, siz də ora!.Haydı, haydı, yubanmayın... Gözləyirəm yolunuzu!.

... Budu ha!. Baxın, baxın!. Arxamca gəlirlər!. Qəmli, kədərli baxışları ürək sızladır, elə bil irəlidəki vaqeni, hasısa bir qüvvənin köməyi ilə duyurlar, hiss edirlər... Onları səsləyən, bura gətirən mənəm, mənciyəz. Və yəqin ki, Allah qarşısında bundan böyük günah ola bilməz. Neyləyəsən, özgə yol, özgə çarə yox...

Göylərə baxdı, göylər dəliyə dönüb. Günəş şəfəq saçar hər yerə, tez soyuq külək əsir, qara bulud günəşin qabağına halə çəkir, şidirğı yağış səpələyir və dayanır... Bu nədi, bəlkə təbiət indicə baş verəcək vaqiəni hiss edib, göz yaşları tökür, hə?.

Qəmər nənə şiş ucalı buludlarla döyüşən Gəlin qayasının başında dayandı, hamıya baxdı və var səsiylə qışqırdı:

-Mən getdim Allahla görüşə! Gəlin, arxamca, gəlin!... Özünü atdı qayadan aşağı. Və tərəddüd eləmədən, nənənin ardınca tullandı qayadan... hamı... hamı...

Əfsanədən, nağıl dünyasından gəlmişdilər. Nağıla, əfsanəyə də döndülər...

***

Yaxın dostlardan biri bərk-bərk yapışıb əlimdən qonaq apardı məni. Demə, onun gəlininin soykökü Geştəkili imiş. Qabağıma çay, şəkərbura qoyub əlindəki dəsmalı göz yaşları ilə islada-islada bu qəmli hekayəti nəql etdi o. Ayağa qalxdım, çay soyumuşdu, şəkərburaya əl vurmamışdım. Titrəyən barmaqlarım arasında zəhrimar papiros tüstülənirdi.

Və məm zəmanəyə çağırışıb eləyib, 1993-cü ildə baş verən qəmli hekayəti ona görə bu günə gətirdim ki, qoy erməni vandallarının işğal altındakı hər rayon, hər kənd, məhəllə, çay, bulaq, dağ-dərə, gül, çiçək qocalı-cavanlı , uşaqlı-böyüklü heç kəsin yadından çıxmasın... Hahaq deyilməyib ki, unutqan insanın vicdanı olmaz!.

**P.S:** Nə olub? Nə baş verib? Səhər yuxusuna getmişəm nədi... Özümüzə qayıdıb Kəlbəcər- qədim atababa yurdumuz! Dəli dağ, İstisu, Sarıyer... əl eləyir bizə.

Nəvəmin maşınında gedirəm o yerlərə. 50 il bundan qabaqkı tələbə dostum Geştəki Vaqifin yanına. Xəbər göndərib ki, tez gəlsin, quzu kəsəcəm ona...

... Qarşıdan gələn maşına əl eləyirəm:

-Əylən, ay oğul, Geştəkə getmək istəyirik. Sağa, yoxsa sola dönək?.

-Nabələd olduğumuzu hiss edən cavan deyir:

-Sağa, saga sürün!

-Sonra ağır eşitdiyimi zənn eləyib, yaxına gəlir, ucadan qışqırır:

-Əmican, Geştək keçmiş adıdı o kəndin... indi ora Qəmərlidi! Qəmərli!, Qəmərli !!!

**Əlibala Rəhimov,**
**folklorşünas,**
**"Qızıl qələm" mükafatı laureatı**
**Biləsuvar rayonu**